

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 248 (21.909)

*29 dekabr 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Mənəvi Dəyərlər Fondu"nun yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin tabeliyində "Mənəvi Dəyərlər Fondu" yaradılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2017-ci il*

## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə Kazımov Məhbub Həşim oğlu **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2017-ci il*

## Yola salacağımız il uğurlu layihələrlə yadda qalacaq

***İnkişaf edən Naxçıvanın ən yeni tarixində növbəti, 2017-ci ili də uğurlarla yola salırıq. Geridə qoyacağımız il, ümumilikdə, dünya iqtisadiyyatında baş verən çətinliklərlə müşayiət olunsa da, bütövlükdə, ölkəmizin, o cümlədən muxtar respublikamızın iqtisadi yüksəliş tempini zəifldə bilmədi. Tam əksinə, bütün Azərbaycan vətəndaşları kimi, Naxçıvan Muxtar Respublikası sakinləri də müstəqil dövlətimizin memarı, ulu öndər Heydər Əliyevin ideyaları ətrafında daha sıx birləşərək iqtisadi, mədəni və sosial inkişafda yeni uğurlara imza atdılar.***





Bu il də muxtar respublikada ötən illər ərzində gərgin zəhmət hesabına yaradılmış güclü istehsal-iqtisadi və enerji potensialından səmərəli istifadə edilərək xeyli abadlıq və quruculuq işləri görüldü, yeni iqtisadi layihələr həyata keçirildi. Naxçıvanda əhalinin rifahının yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, ixracın genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Bütün bunlar da muxtar respublikada iqtisadi sahədə sabit artım tempinin qorunub saxlanılmasına imkan verdi, əhalinin bütün təbəqələrinin firavan yaşayışı təmin olundu. Doğma diyarımız üçün həyati əhəmiyyət daşıyan ərzaq və enerji təhlükəsizliyi məsələlərinin daha da möhkəmləndirilməsi, eyni zamanda ölkəmizin strateji valyuta ehtiyatlarının artırılmasına xidmət edən çoxşaxəli, ixracyönümlü iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən yeni layihələr Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişafında uğurlu bir il kimi yaddaşlara yazılacaq.

Naxçıvanda özəl sektorun inkişafı diqqətdə saxlanılır. Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi 2017-ci ildə də prioritet sahələr kimi öz əhəmiyyətini qorudu. Əhalinin aktiv məşğulluq səviyyəsinin artırılması, özünüməşğulluğun genişləndirilməsi, istehsal və sosial infrastruktur sahələrində aparılan yenilənmə və həyata keçirilən yeni iqtisadi layihələr sosial məsələlərin həllinə əsaslı töhfələr verdi. Cari ildə həyata keçirilmiş belə layihələr arasında sənaye, kənd təsərrüfatı və xidmət sahələri olmaqla, ümumilikdə, 38 iri layihənin əsası qoyulub. Sahibkarlığa Kömək Fondunun kredit vəsaitləri və özəl investisiya qoyuluşu hesabına yaradılan bu istehsal və xidmət sahələri regional inkişaf, çoxşaxəlilik, iqtisadi rentabellik və iş yerlərinin yaradılması prinsipləri baxımından diqqəti cəlb edir. Belə ki, bu müəssisələrdə, 600-dən çox sakin üçün yeni iş yerləri yaradılıb. Paytaxt Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikamızın, demək olar ki, bütün bölgələrində yaradılan istehsal və xidmət sahələri regional inkişaf üçün də mühüm əhəmiyyət daşıyır. Müəssisələrin profillərinə gəldikdə, burada sənaye sahəsi üzrə panel radiator və dam örtüyü istehsalı, meyvə, süd, duz və tütün emalı, habelə pivə doldurulması üçün şüşə tara, arsenli quru qalıq və mum vərəqi istehsalı sahələri diqqəti cəlb edir.

Muxtar respublika iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən sənaye sahəsi üzrə bu layihələr arasında ilk olaraq Naxçıvan şəhərində "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı tərəfindən yeni çeşiddə dam örtüyü istehsalı, alüminium radiatorların yığılması, boyama sahəsini, yenə Naxçıvan şəhərində "Cahan Holdinq" tərəfindən "Cahan Tabak" MMC yeni istehsal sahəsini və Şərur şəhərində fəaliyyət göstərən unlu-qənnadı məmulatları istehsalı və iaşə xidməti sahələrini göstərmək olar. Belə ki, bu müəssisələrdə, ümumilikdə, 175 nəfər üçün yeni iş yerləri yaradılıb. Özəl investisiya qoyuluşu və dövlət maliyyə dəstəyi ilə yaradılan bu müəssisələrdə istehsal olunan məhsullar regionun daxili bazarının tələbatını ödəməklə yanaşı, onların muxtar respublikamızdan kənara da göndərilməsi nəzərdə tutulub. Dövlət maliyyə dəstəyi ilə fəaliyyətə başlayan digər bir müəssisə Naxçıvan şəhəri, Əliabad qəsəbəsindəki "D-adlı qaymaq" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən xama istehsalı sahəsidir. Gün ərzində 5 ton süd emal edə bilmək gücündə olan bu müəssisədə 10 nəfər işlə təmin olunub. Hazırda burada istehsal olunan məhsullara tələbat böyükdür.

Kənd təsərrüfatı Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının prioritet sahələrindən biridir. Naxçıvanın yüksəkkeyfiyyətli yerli xammalına əsaslanan orqanik ərzaq məhsullarına hər yerdə tələbat böyükdür. Buna görə də Naxçıvanda ərzaq məhsullarının istehsalı və emalı üzrə təşkil olunan istehsal müəssisələri üçün bazar imkanları həmişə mövcuddur. Bu il muxtar respublikada kənd təsərrüfatı sahələri üzrə istifadəyə verilmiş müəssisələr arasında Naxçıvan şəhərində dövlət vəsaiti hesabına yaradılmış və 35 nəfərin işlə təmin olunduğu "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətini, özəl investisiya qoyuluşu ilə Kəngərli rayonunda "Cahan Tabak" MMC tərəfindən yeni yaradılmış və 60 nəfərin işlə təmin olunduğu tütünyetişdirmə mərkəzini, dövlət maliyyə dəstəyi ilə Babək rayonunun Pircuvar massivində "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 50 hektar sahədə bağçılıq və əkinçilik təsərrüfatını, habelə arıçılıq, bağçılıq, quşçuluq, iribuynuzlu və xırdabuynuzlu heyvan saxlanılması ilə məşğul olan xeyli sayda kiçik sahibkarlıq subyektlərini göstərmək mümkündür. Özəl investisiya qoyuluşu ilə fəaliyyətə başlayan Babək rayonunun Nehrəm kəndində fiziki şəxs Ənvər Əliyev tərəfindən bağçılıq təsərrüfatındakı 100 hektar üzüm və 20 hektar alma bağına qulluq etmək üçün 130 nəfər işə cəlb olunub. Bu da əhali məşğulluğunda çox əhəmiyyətlidir.

Muxtar respublikamızda əhaliyə göstərilən xidmətlərin çeşidi və keyfiyyəti günü-gündən artırılır. İnsanlara müasir tələblərə uyğun rahat və sürətli xidmətlərin təqdim edilməsi üçün ticarət və iaşə xidmətlərinin göstərilməsi bu baxımdan rəğbətlə qarşılanır. Yola salacağımız il, həm də bu mənada, əlamətdar olub. Belə ki, özəl investisiya qoyuluşu ilə fəaliyyətə başlayan iri xidmət obyektlərindən Naxçıvan şəhərindəki "Danyeri" iaşə, ticarət xidməti və dondurma istehsalı sahəsi və "Cahan Holdinq" tərəfindən yaradılmış tikinti materiallarının topdansatış mərkəzində, ümumilikdə, 100 nəfərdən çox insan işlə təmin olunub.

Muxtar respublika iqtisadiyyatında əldə olunan uğurlar burada yaşayan insanların doğma torpağa bağlılığının, qurub-yaratmaq əzminin nəticəsidir. Naxçıvanlılar bu torpağın sərvətlərindən və dövlətimizin onlara hərtərəfli qayğısından bəhrələnərək, dünən reallaşması çətin görünən layihələri bu gün qətiyyətlə həyata keçirirlər. Heç şübhəsiz, qazanılan uğurların əsas səbəblərindən biri də sahibkarlara göstərilən yüksək dövlət qayğısıdır.

✍ **Əli CABBAROV**

***Başa vurmaqda olduğumuz 2017-ci il Culfa rayonu üçün də əlamətdar olub. Belə ki, ötən dövr ərzində rayon mərkəzində, kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı quruculuq tədbirləri həyata keçirilib. Bir sıra obyektlərin açılışı olub.***

## Daha bir yaşayış məntəqəsi müasirliyə qovuşur

Hazırda rayonun Dizə kəndində aparılan tikinti obyektlərində son tamamlama işləri görülür. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən Dizə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunub. Məktəb binası üçmərtəbəlidir.

İnşası başa çatdırılan kənd mərkəzinin binası isə ikimərtəbəlidir. Bu binada kənddə fəaliyyət göstərən qurumlar üçün hərtərəfli şərait yaradılacaq.

Birmərtəbəli xidmət mərkəzi də istifadəyə hazır olan obyektlər sırasındadır. Bu mərkəz sakinlərin ərzaq və təsərrüfat mallarına olan tələbatlarının ödənilməsinə öz töhfəsini verəcək.

Culfa rayonunda yol tikintisi əvvəlki illərdə olduğu kimi, 2017-ci ilin ötən dövründə də diqqət mərkəzində saxlanılıb, yeni yolların çəkilişi və mövcud yolların təmiri məqsədilə ardıcıl və işə zəruri tədbirlər həyata keçirilib. Hazırda Naxçıvan-Ordubad magistralının Yaycı kəndi ərazisindən başlayaraq Şurud kəndinə qədər olan yol yatağı yenidən qurulur.

## Maarifləndirici tədbir keçirilib



Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə Şərur Rayon İcra Hakimiyyətində tədbir keçirilib. Mədəni və yabanı dərman bitkilərinin mövsümə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması qaydaları ilə bağlı ailə təsərrüfatları üçün keçirilən tədbiri Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini İmran Əliyev açıb.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Əli Şərifov bildirib ki, muxtar respublikamızın təbii iqlim şəraiti, münbit torpaqları regionumuzda kənd təsərrüfatının digər sahələri ilə yanaşı, müalicəvi dərman bitkilərinin yetişdirilməsi və yayılmasını da təmin edib. Bu mənada, mədəni və yabanı dərman bitkilərinin yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması bu işlə məşğul olan ailə təsərrüfatlarının müvafiq biliklərə malik olmalarını zəruri edir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər" haqqında 2017-ci il 22 noyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində müvafiq tədbirlər planı hazırlanıb. Planda həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən biri də mədəni və yabanı dərman bitkilərinin tədarükü ilə bağlı məlumatlandırıcı bukletlərin hazırlanması, ailə təsərrüfatları üçün müvafiq treninqlərin təşkilidir.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Əliyar İbrahimov Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış dərman bitki xammalı tədarükünün təşkili, dərman bitkilərinin toplanması və qurudulması qaydaları haqqında məlumat verib.

95 ailə təsərrüfatı nümayəndəsinin iştirak etdiyi tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, maarifləndirici bukletlər paylanılıb.

Tədbirə Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini İmran Əliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

*Jurnalistin qeydləri*

# Ötən ağrılı-acılı illərdən firavan yeni illərə

***Nədənsə, hər il yeniilqabağı ilk olaraq yadıma qaranlıqda qarşıladığımız ötən yeni illər düşür. Bu gün gecələri gündüzlərindən də cazibədar olan, yeniilqabağı bayram libasını geyinən Naxçıvan şəhərini gəzdikcə gəncliyimin xatirələr toplusuna hopmuş o günlər yenidən xəyalımda canlanır. İllər sonra məni illər öncəyə yolçuluğa çıxarır. Xəyalən yolçusu olduğum yolun 1988-ci il adlı ilk dayanacağına çatıram. Buradan Naxçıvan Muxtar Respublikasının blokadaya salındığı o çətin illər başlayır. İnsanların min bir əzab-əziyyətlə qarşılaşdığı o illər – blokadanın ilk illəri Naxçıvan üçün çox ağır oldu. Ölkəyə yeganə quru yolla çıxış olan dəmir yolunun fəaliyyəti dayandırıldı. Hava yolunda problemlər yaradıldı. Naxçıvanlıların paytaxtla və vətənin digər bölgələri ilə əlaqələri tamamilə kəsildi. Elektrik və təbii qaz xətlərinin ermənilər tərəfindən dağıdılması nəticəsində Naxçıvan işıqsız və qazsız qaldı. Ərzaq qıtlığı yarandı.***

Naxçıvan ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, “Taleyin ümidinə buraxılmış tənha bir ada”nı xatırladırdı. Ulu öndər Heydər Əliyev də blokadanın ən ağır günlərində Naxçıvana gəldi. Naxçıvanlılarla birlikdə həmin günləri yaşadı, çıraq işığında mühüm tarixi qərarlar qəbul etdi, soyuq otaqlarda gecələməli oldu, hətta yeni illəri də çıraq işığında qarşıladı.

O illər qış da çox sərt keçirdi. Soyuqdan qorunmaq üçün camaat əlacsız qalıb həyətlərindəki, yaşayış məntəqələrindəki, yol kənarlarındakı ağacları doğrayıb yandırırdılar. O ağacları ki onların hər biri dədə-baba yadigarı idi. Ümummilli lider Heydər Əliyev kəsilmiş ağacların yerində yaranan bu görüntünü “təbiət qəbiristanlığı” adlandırmış, təbiətə dəyən bu ziyanın tezliklə aradan qaldırılması üçün naxçıvanlılara tövsiyələr vermiş, onları ağac əkib, bağ salmağa dəvət etmişdi.

Yadımdadır, saatlarla çörək növbələri yaranırdı. Bir evdə yaşayan ailə üzvlərinin hər biri soyuqdan donmamaq üçün bir saatdan bir növbəni dəyişirdilər. Bu növbələr, təbii ki, bayram günləri də olurdu. Bayram əhval-ruhiyyəsini hiss edə biləcəyimiz yeganə vasitə televiziya verilişləri izləməyimiz idi. Lakin həm elektrik enerjisinin fasilələrlə verilməsi, həm də uzun-uzadı çörək növbələri bu istəyimizə qənim kəsilmişdi.

İnsanlar ərzaq qıtlığı üzündən bayram süfrələrini ürəkləri istəyən kimi qura bilmirdilər. Bunun nə dərəcə ağır olduğunu ancaq o acı günlərin şahidləri bilir. Ata-analar bayram günlərində sanki övladlarından utanırdılar. Çünki bayramın adi günlərdən heç bir fərqi yox idi. Muxtar respublikada çörək sexləri barmaqla sayılası qədər idi. Belə olan halda şirniyyat istehsalından söhbət belə, gedə bilməzdi. Un qıtlığı isə evdə şirniyyatların bişirilməsinə imkan vermirdi.

Qaranlıqda sükutla qarşıladığımız neçə yeni illərimiz olub. Yeni ili təmtəraqlı edən nədir? Əlbəttə, adi günlərdən fərqli bayram süfrəsi, gur, al-əlvan işıqlar, səs-küy, konsert proqramları. Ancaq o illərdə bunların heç biri yox idi. Elektrik enerjisi iki saatdan bir verilirdi. O iki saatdan da insanlar normal istifadə edə bilmirdilər. Sayğac sisteminin olmaması, evlərin qızdırılması üçün qeyri-standart qızdırıcılardan istifadə edilməsi elektrik enerjisinin nəqlində tez-tez problemlər yaradırdı. Yaxşı xatırlayıram, 1991-ci ilin 31 dekabrı idi. Soyuqdan evdə oturmaq mümkün deyildi. Ancaq çox həvəslə ilin son saatının tamamını gözləyirdik. Axı Yeni il bayramının ən maraqlı anı elə bu idi. Biz də 1992-ci ili gözləyirdik, heç olmasa, televiziya ekranlarından bu yeniliyi həyatımıza daxil etmək istəyirdik. Gözlədiyimiz saatın düz tamamında elektrik enerjisi kəsildi. Hər yan qaranlığa qərq oldu. Bunun insan psixologiyasına təsirindən danışmaq artıqdır.

Ailələrin əksəriyyətində bayram günləri uşaqların gözləri yolda qalırdı: bəlkə, atam bu gün gələr, – deyə. Çünki hər bir naxçıvanlı ailəsində ümumi bir problem yaşanırdı. Buradakı çox az ailələrdə ailə başçısı var idi. Digərləri isə iş yerlərinin yoxluğu ucbatından başqa yerlərdə çalışmağa yollanmışdı.

...Bu xatirələrdən məni Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki böyük yolkanın füsunkar görünüşü və ətrafdakı gur, al-əlvan işıqlar ayırır. Ümummilli liderin mümkün olan yolların hər birindən böyük siyasi bacarıqla istifadə edərək Naxçıvanın blokadasını yarmasını, qonşu İran və Türkiyə ilə danışıqlardan sonra muxtar respublikanın elektrik enerjisi və ərzaqla təminatındakı müsbətə doğru ilk dəyişiklikləri xatırlayıram. Bu elektrik enerjisi fasilələrlə verilsə də, ərzaq insanların tələbatından az olsa da, əsas məsələ onların mənəvi sarsıntısının aradan qaldırılması, bir sözlə, yaşamaları oldu. Blokadada olmasına rəğmən Naxçıvan düşmənə meydan oxudu. Məhv olmaması, yaşaması ilə onun gözdağına çevrildi, informasiya blokadasını yarıb, səsini dünyaya yaydı. Mənsub olduğu ölkənin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. Bütün bunlar blokadanın ilk illərində burada gələcək üçün blokada ilə yanaşı gedəcək inkişaf və tərəqqi mərhələsinin qığılcımları idi. İllər sonra illər öncəyə yolçuluqda 1990-cı illərin ortalarından bu günədək ötən illərin hər birinə ayrı-ayrılıqda nəzər saldıqda nələr gördük muxtar respublikada?

Bu illərin ən yüksək göstəriciləri Naxçıvanın elektrik enerjisi və təbii qazla fasiləsiz təminatı, informasiya blokadasının tamamilə aradan qaldırılması, Naxçıvanın ölkə ilə həm quru, həm də hava yolu nəqliyyatının bərpa edilməsi üçün illərlə danışıqlar aparıldı, olmazın əziyyət çəkildi, bir sözlə, bütün bunlara zərrə-zərrə nail olundu.

Prospektdə uşaqlarının əllərindən tutub gəzişən ataları gördükcə öz-özümlə fikirlərimi paylaşıram: Bax ötən illər gedənləri geri qaytardı, ata həsrətli övladların gözlərini yollardan çəkdi. Muxtar respublikamızda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş quruculuq siyasətinin geniş vüsət alması yeni iş yerlərinin yaranmasına səbəb oldu. Ötən illərin hər biri yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması ilə müşayiət olundu ki, sovet dövründə, bütövlükdə, heç Azərbaycanda bu qədər istehsal müəssisəsi olmayıb.

Torpaq islahatının muxtar respublikamızda uğurla başa çatdırılmasının, zəhmət adamlarına göstərilən qayğının nəticəsi olaraq əkin sahələri ildən-ilə genişləndirildi, əhalinin yerli məhsullarla təminatının vacibliyi məsələsi öz həllini tapdı. İndi muxtar respublikada onlarla adda məhsul istehsal olunur. Bu isə əhalinin məşğulluğu sahəsində həyata keçirilən işlərin məntiqi davamı, insanların sağlam, keyfiyyətli qida məhsulları ilə təminatının qeydinə qalınmasının göstəricisi, süfrələrin bolluğu deməkdir. Bu gün Naxçıvan bazarlarında o qədər çeşiddə məhsul, bir vaxtlar bayramda belə, süfrələrimizə qoya bilmədiyimiz şirniyyat növləri var ki, adam seçim qarşısında çətinlik çəkir.

Quruculuğun ahəngdar və davamlı olması muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafına şərait yaradıb. Burada həyata keçirilən quruculuğun maraqlı tərəfi ondadır ki, bu proses ucqarlardan başlanıb. Ucqar, sərhəd kəndlərimizdə müasirtipli məktəb binalarının, həkim ambulatoriyalarının, kənd mərkəzlərinin tikilməsi, yolların, körpülərin abadlaşdırılması kəndlini qədim yurd yerlərinə bağlayıb. Onlar üçün kəndlərdə şəhər rahatlığı yaradılıb. Torpağı və hərtərəfli şəraiti olan kənd adamı bu gün dövlətin dəstəyini, qayğısını hiss edərək yaşayır. Dövlət ona əkmək, biçmək, istehsal etdiyi məhsulu satmaq, ümumilikdə, yaxşı yaşamaq üçün şərait yaradıb.



Nazirlik, komitə, idarə, müəssisə və təşkilatlar üçün yeni inzibati binaların tikilməsi illərlə şəraiti olmayan, uçuq-sökük binalarda işləməyə məhkum olmuş insanların iş həyatında da bir yenilik yaradıb, onların muxtar respublikamızın inkişafı naminə fəaliyyətlərini gücləndirib. Yeni məktəb binalarının inşası, məktəblərdə yaradılan hərtərəfli şərait, müasir texniki yeniliklərin tətbiqi tədrisin keyfiyyətini ildən-ilə qaldırmaqdadır.

Müasir inkişafla bağlı məlumatı almaqla blokada Naxçıvanının o dövrünü öyrənmək olar. Öyrənmək olar ki, blokada şəraitində olan Naxçıvan son 22 ildə böyük sürətlə inkişaf, tərəqqi edib və etməkdədir. Onu da öyrənmək olar ki, bir-birinin əksi olan blokada və inkişaf sözlərinin bir araya necə sığması dünya tarixində tək Naxçıvanda mümkün olmuşdur.

Muxtar respublikamızın iqtisadiyyatından tutmuş mədəniyyətinədək, yeni məktəb binalarının tikintisindən tutmuş ali və orta ixtisas məktəblərinin, inzibati və ictimai yaşayış binalarının tikintisi və yeniləşdirilməsinədək, tarixi abidələrimizin bərpasından muzeylərimizin diqqətdə saxlanılmasınadək, böyük quruculuq işlərinin ildən-ilə genişləndirilməsindən muxtar respublikanın yaşıllıqlara qərq olunmasınadək görülən bütün işlər müstəqillik dövrünün bəhrələridir.

Böyük qürurla söyləyə bilərik ki, doğma diyarımızda tarixdə görünməmiş, tarixə yazılmamış proseslər, insan ağlına sığmayan dəyişikliklər baş verib. O dəyişikliklər ki Naxçıvana ötən dövrdə yolu düşənlərin heyrətinə səbəb olub, xarici mətbuat səhifələrində jurnalistlərin öz ölkələrini də belə görmək istəklərindən yaranan mövzulara, səliqə-sahmanı, təmizliyi ilə nümunə olaraq göstərilən regiona çevrilib. Naxçıvan indi bura gələnlərin ötənlərlə bu günü, özününkü ilə buranı müqayisəetmə məqamındadır. Naxçıvan bu gün dünyanın ən inkişaf etmiş regionları sırasındadır. Lakin bir fərq var. Naxçıvan digər inkişaf etmiş regionlardan fərqli olaraq, blokada vəziyyətində inkişaf, tərəqqi dövründədir.

Blokada və inkişaf... Bir-birinin əksi olan bu sözlərin bir araya necə sığmasını dünya tarixçiləri gələcəkdə, bəlkə də, bizim müstəqilliyimizin altmışıncı, yetmişinci illərində Naxçıvanın simasında tədqiq edəcəklər. Bu tədqiqat dünya tarixinə Naxçıvan nümunəsi ilə həkk olunacaq.

Yuxarıdakı fikirləri xatırlamaqla illər öncədən illər sonraya – 2017-ci ilə qayıdıram. Son günləri ilə tarixə çevrilməkdə olan 2017-ci ilə. “Çiyinlərini” ağır blokadanın altına verən Naxçıvan yeni ili yeni arzularla qarşılayır, həm də ən yüksək səviyyədə. Uzun illik blokadanın keşməkeşli sınaqlarından alnıaçıq, üzüağ çıxan Naxçıvan buna layiqdir.

**✍ Mətanət MƏMMƏDOVA**

***Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası, ilk növbədə, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.***

# İqtisadiyyatın şaxələndirilməsində uğurlu nəticələr əldə edilib

Bu gün Naxçıvan Muxtar Respublikasında yaradılan ümumi daxili məhsulun həcmi, təqribən, 2,5 milyard manata çatmaqdadır. Bu, bir daha onu göstərir ki, muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilib. Başqa sözlə, 1995-ci ildən başlayaraq uğurla həyata keçirilən iqtisadi kurs, nəticəyə hesablanmış strategiya və reallığı özündə ehtiva edən fəaliyyət bu gün öz bəhrəsini verməkdədir. Bunu statistik göstəricilərlə bərabər, muxtar respublikaya gələn xarici qonaqlar, o cümlədən Naxçıvanın iqtisadi inkişafını təhlil edən ekspertlər də xüsusi vurğulayırlar.

Muxtar respublikada daxili bazarın qorunması istiqamətində həyata keçirilən tədbirlər iqtisadiyyatın şaxələndirilməsinə öz müsbət təsirini göstərib. Belə ki, yerli istehsalı mümkün olan, qida təhlükəsizliyi parametrlərinə tamamilə cavab verən, istehsalında yerli xammaldan istifadə edilən əmtəələrin eyniadlı xarici analoqlarından, xüsusilə onların dempinq təsirindən sığortalanması hər bir ölkədə olduğu kimi, Naxçıvanda da həyata keçirilən iqtisadi tənzimləmə tədbirlərindəndir. Təcrübə göstərir ki, daxili bazarın bu yolla qorunması, konkret tədbirlərin görülməsi nəticəyə əhəmiyyətli təsir göstərir. Muxtar respublika iqtisadiyyatının xaricə açılan qapılarında – gömrük-keçid məntəqələrində tamamilə yeni infrastruktur komplekslərinin qurulması, onların iş saatlarının artırılması istiqamətində görülən işlər də bu sahədə mühüm addımlardandır. Qardaş Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsullara tətbiq edilən məhdudiyyətlərin və rüsumun aradan qaldırılması ixrac imkanlarının da artmasına şərait yaradır. Bu isə sahibkarlarımız üçün geniş imkanlar yaratmaqla bərabər, eyni zamanda onların öz üzərlərinə düşən məsuliyyəti dərk etmələrini, müəyyən sahələr üzrə istehsalın xərclərinin azaldılmasını, texnoloji proseslərin daim innovativ prinsiplərə uyğun olaraq yenilənməsini, keyfiyyət meyarlarına tam cavab verən ekoloji təmiz məhsulların istehsalına diqqətlərini daha da artırmasını tələb edir. Əgər belə olarsa, yerli məhsullarımız rəqabətədavamlı olacaq və daxili, həmçinin xarici bazarlarda da həmin məhsulların daimi alıcı kütləsi formalaşacaq.

İqtisadiyyatın çoxşaxəliliyi prosesi sistemxarakterli olmaqla ardıcıl yanaşma da tələb edir. Həmin yanaşma muxtar respublikada mövcuddur və bu, digər bütün sahələrdə həyata keçirilən işləri əhatə etməklə hərtərəfli inkişaf prosesinin davamlılığını təmin edib. Dövlət dəstəyi ilə verilən güzəştli kreditlər hesabına vacib istehsal sahələrinin yaradılması, prioritet hesab olunan sahələrdə yeni infrastruktur şəraitinin qurulması, yerli tələbatın tamamilə yerli istehsal hesabına formalaşmasının əsas məqsəd kimi qarşıya qoyulması bu baxımdan önəmlidir.

Bu gün bazara yeni məhsulların çıxarılması, yerli xammala əsaslanan istehsalın dəstəklənməsi, daha çox sərmayə qoyuluşu tələb edən sahələrin dövlət hesabına maliyyələşdirilməsi də bu istiqamətdə atılan addımların tərkib hissəsidir. Naxçıvanda alternativ və bərpaolunan enerji mənbələri hesabına güclü enerji potensialının yaradılması muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə bərabər, istehsal müəssisələrinin də fasiləsiz olaraq fəaliyyəti üçün əsaslı zəmin yaradır. Bundan başqa, yeni istehsal, emal və xidmət müəssisələrinin yurdumuzun hər yerində, qəsəbələrdə, dağ və sərhəd kəndlərində yaradılması məşğulluğu təmin edir, həmin yaşayış yerlərində məskunlaşmanı artırır.

Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər xarici ticarət əlaqələrinin daha da genişləndirilməsinə imkan verir. Nüfuzlu xarici qonaqların Naxçıvanın mövcud, iqtisadi potensialı ilə tanış olmaları üçün şəraitin yaradılması, ölkə və dünya səviyyəli sərgilərdə, yarmarkalarda muxtar respublika sahibkarlarının iştirakının təmin edilməsi, Naxçıvan məhsullarının xarici bazara çıxarılması məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi onların ixrac imkanlarını daha da artırır. Eyni zamanda muxtar respublikamızda yol infrastrukturu şəbəkəsinin genişləndirilməsi və magistral yolların buraxılış qabiliyyətinin gücləndirilməsi də iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir. Dəmir yolu və hava nəqliyyatı xətlərinin dünya standartları səviyyəsində yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanının xarici ölkələrlə hava yolu əlaqələrinin mövcudluğu da muxtar respublikanın dünya iqtisadiyyatına inteqrasiyasının daha da sürətlənməsinə stimul verir.

Bu gün iqtisadiyyatımız yüksəliş yolundadır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası ardıcıllıqla davam etdirilir. Müəyyən olunmuş inkişaf istiqamətləri üzrə iqtisadiyyatın şaxələndirilməsi isə müasir dövrün tələbidir. Bu istiqamətdə muxtar respublikamızda davam etdirilən iqtisadi inkişaf siyasəti insanların rifahının yüksəlməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına töhfəsini verməklə bərabər, prioritet məsələlərin həllində də öz əhəmiyyətini bir daha göstərməkdədir.

**Zaur BAĞIROV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi Gömrük nəzarətinin təşkili şöbəsinin rəisi***

## Muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclər mükafatlandırılıblar

***Naxçıvan şəhərindəki "Duzdağ" otelində 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılma mərasimi olub.***







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə aparıcılar muxtar respublika əhalisinin 30 faizdən çox hissəsinin gənclər olduğunu vurğulayıblar. Qeyd edilib ki, bu gün qədim diyarda aparılan siyasət nəticəsində gənclərin dövlət idarəetmə orqanlarına, o cümlədən cəmiyyətin bütün aparıcı sahələrinə inteqrasiyası diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxışında bu il muxtar respublikamızda idman və gənclərlə iş sahələrində həyata keçirilən tədbirlərdən danışıb, əldə olunan nailiyyətlərdən bəhs edib.

"Təsadüfi deyil ki, ilin son günü biz, eyni zamanda dünya azərbaycanlılarının həmrəylik bayramını da qeyd edirik. Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qeyd olunan bu tarix dünya azərbaycanlılarını vahid Vətəninin – Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, qazanılan uğur və nailiyyətlərdə, haqq mübarizəsində bir olmasına, həmrəyliyinə yönəlmiş çağırış bayramıdır. Bu səbəbdən bu tarixi bayram ildən-ilə sərhədlərini daha da genişləndirərək, bütün dünya azərbaycanlıları tərəfindən dərin rəğbətlə qeyd olunur", – deyən gənclər və idman naziri tədbir iştirakçılarını 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov çıxışında qeyd edib ki, muxtar respublikamızda gənclər siyasəti uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil, mədəniyyət, idman, səhiyyə, sosial təminat sahələrində gördüyü işlər doğma diyarımızda hərtərəfli inkişafı təmin edir. Vurğulanıb ki, muxtar respublikada gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara vətənə bağlılıq hisslərinin aşılanması, eləcə də asudə vaxtlarının səmərəli təşkil edilməsi, intellektual və fiziki inkişafının təmin olunması üçün hər cür şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, dövlət gənclər siyasəti bu gün Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Son illər gənclərimizin muxtar respublikamızın həyatında fəal iştirakı, gənc istedadların dövlət qayğısı ilə əhatə olunması gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərin tərkib hissəsidir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu bu ilin ötən dövrü ərzində həyata keçirilən layihələrdə gənclərin intellektual inkişafı, onların asudə vaxtlarının səmərəli təşkil olunması və müxtəlif layihələrdə birgə iştiraklarını ön plana çəkib, aidiyyəti qurumlarla birlikdə bir sıra tədbirlər həyata keçirib", – deyən Məmməd Babayev qeyd edib ki, bu ilin ötən dövrü ərzində təşkil edilən müxtəlif layihələrdə, yaradıcılıq müsabiqələrində və bilik yarışlarında muxtar respublika üzrə 4 minə yaxın gənc iştirak edib, 400-ə yaxın gənc isə mükafatlandırılıb. Hər il olduğu kimi, bu il də yay tətili müddətində gənclərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə Ağbulaq İstirahət Mərkəzində yay məktəbi təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru bundan sonra da gənclərə yönəldilmiş layihələrin diqqətdə saxlanılacağını bildirib, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edib, onlara uğurlar arzulayıb.

Sonra tədbirin simvolu sayılan tortu kəsmək üçün Yeni ilin rəmzi olan Şaxta baba və Qar qız, həmçinin gənclər səhnəyə dəvət olunublar.

Tədbirin gedişində Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Bayram tədbiri musiqi və rəqs nömrələri ilə davam edib. Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Nəqşicahan" ritm qrupunun, Naxçıvan Musiqi Kollecinin muğam üçlüyünün, "Gənclik" instrumental ansamblının ifalarında mahnılar səsləndirilib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qruplarının çıxışları olub. Eləcə də Naxçıvan Dövlət Universitetinin Şən və Hazırcavablar Klubunun və Naxçıvan Dövlət Texniki Kolleci tələbələrinin hazırladıqları səhnəciklərə tamaşa edilib. Bakı şəhərindən dəvət olunmuş müğənni Nuray Məhərovun çıxışı da alqışlarla qarşılanıb.

Sonra Naxçıvanın 2018-ci ildə "Gənclər paytaxtı" seçilməsinə dəstək məqsədilə hazırlanan videoçarx nümayiş olunub.

Tədbir çay süfrəsi ətrafında davam edib.

**Fatma BABAYEVA**

---

***Naxçıvan Dövlət Universitetində 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş "Mənim tələbə dünyam" adlı videomüsabiqəyə yekun vurulub.***

## Ali təhsil ocağında tədbir keçirilib



Müsabiqədə fərqlənən tələbələrin mükafatlandırılması mərasimində çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu cür tədbirlərin Naxçıvan Dövlət Universitetinin tanıdılması, ümumilikdə, muxtar respublikamızda təhsil üçün yaradılan müasir şəraitin təbliği baxımından əhəmiyyətini qeyd edib. Rektor tələbələri növbəti müsabiqələrdə daha fəal olmağa çağırıb.

Qeyd edək ki, tələbələr tərəfindən çəkilən və universitet həyatını, tələbə dünyasını əks etdirən videolarda yaradıcı yanaşma əsas götürülüb. Naxçıvan Dövlət Universitetinin "İnstagram" səhifəsində yerləşdirilmək üçün 20-dən çox video müsabiqəyə təqdim olunub.

Qaliblər universitetin "İnstagram" səhifəsində ən çox bəyənilən 10 video arasından seçilib. Peşəkar münsiflərin rəyinə əsasən Təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə II kurs magistr Gülbani Əliyeva müsabiqənin qalibi olub. Xalq çalğı alətləri ixtisası üzrə I kurs tələbəsi Əsmər İbrahimbəyli II, həmin ixtisas üzrə I kurs tələbəsi Rövşən Rüstəmov III yerləri tutublar. İki tələbə isə həvəsləndirici yerə layiq görülüb.

Qaliblər Naxçıvan Dövlət Universitetinin diplom və pul mükafatları ilə təltif olunublar.

**Səadət ƏLİYEVA**

---

***Tarixdə elə şəxsiyyətlər var ki, onların xidmətləri ölümündən illər, əsrlər keçsə də, öz dəyərini saxlayır. Həmin şəxsiyyətlər işıqlı amalı, nurlu əməlləri ilə yaddaşlarda daim yaşayır. Azərbaycan folklorşünaslığının inkişafında, folklorşünaslar nəslinin yetişməsində böyük xidmətləri olan Məmmədhüseyn Təhmasib də çoxcəhətli ədəbi fəaliyyəti, zəngin yaradıcılığı, ədəbiyyat tarixinizdə əvəzsiz xidmətləri ilə yaddaşlarda ölməzlik qazanan şəxsiyyətlərdəndir.***

*Məmmədhüseyn Təhmasib – 110*

## Folklorşünaslığın təşəkkülündə və inkişafında böyük xidmətləri olan alim



Azərbaycan folklorunun mükəmməl tədqiqatçısı və təbliğatçısı Məmmədhüseyn Təhmasib 1907-ci ildə ruhani tacir Abbasqulu bəyin ailəsində dünyaya göz açıb. Anası Münəvvər xanım Kəngərli tayfasının qızı olub. Kiçik yaşlarından özündən 12 yaş böyük qardaşı, Azərbaycanın görkəmli səhnə ustası Rza Təhmasibin təsiri ilə teatr mühitinə maraq göstərib. 1917-ci ilin əvvəllərində qardaşının hazırladığı "Arşın mal alan" və "O olmasın, bu olsun" tamaşalarında rejissor köməkçisi kimi çalışıb.

Folklor sənətinin ilk doktoru, yazıçı-dramaturqun ömür yoluna arxiv sənədlərindən nəzər salarkən öyrəndik ki, Təhmasib ilk təhsilini Naxçıvanda 1898-ci ilə qədər Məmməd Tağı Sidqinin təsis etdiyi Tərbiyə məktəbi kimi fəaliyyət göstərən, 1899-cu ildən isə "Rus-tatar" məktəbinə çevrilən təhsil ocağında alıb.

Qeyd edək ki, bəzi mənbələrdə Təhmasibin Naxçıvan şəhər məktəbində təhsil alması faktı ilə də rastlaşdıq. Bu barədə kiçik bir araşdırma apararkən öyrəndik ki, "Rus-tatar" məktəbi adlanan bu məktəb, 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Naxçıvan şəhər məktəbi adı ilə fəaliyyətini davam etdirib. Məhz bu səbəbdən Məmmədhüseyn Təhmasibin təhsil aldığı məktəb bəzi mənbələrdə Naxçıvan şəhər məktəbi kimi qeyd olunub. O, 1922-ci ildə bu məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumuna daxil olub. Böyük dramaturq 1927-ci ildə texnikumu bitirərək Naxçıvana qayıdıb. Naxçıvan Xalq Maarif Komissarlığının sərəncamına göndərilən müəllimin Naxçıvandakı 3 ildən artıq fəaliyyəti arxiv sənədlərində öz əksini tapıb.

Bir çox mənbələrdə Məmmədhüseyn Təhmasibin ilk müəllimlik fəaliyyətinə Naxçıvan şəhər məktəbində başladığı göstərilir. Arxiv sənədlərində isə alimin ilk müəllimlik fəaliyyətinə başladığı məktəb Şıxmahmud məktəbi olduğu qeyd olunub. Naxçıvan Dövlət Arxiv İdarəsinin Xalq Maarif Komissarlığı fondundakı mənbədən öyrəndik ki, Azərbaycan Pedaqoji Texnikumunu bitirən Təhmasib Naxçıvan MSSR Xalq Maarif Komissarlığının 18 fevral 1928-ci il tarixli 42 nömrəli əmri ilə Şıxmahmud məktəbinə müdir göndərilib. O, 45 nəfər şagirdlə fəaliyyət göstərən Şıxmahmud məktəbində bir ildən çox işləyib. Təhsil ocağının binası o qədər yararsız olub ki, yağan qarın, yağışın məktəbin içərisinə dolmasına baxmayaraq, burada mədəni maarif işi aparılıb, dram və ictimaiyyət dərnəyi fəaliyyət göstərib, teatr tamaşaları hazırlanıb. Heç şübhəsiz ki, bunların hamısına Məmmədhüseyn Təhmasib başçılıq edib. Bir ildən artıq bu məktəbdə müdir vəzifəsində çalışan Təhmasib 1929-cu ildə Xalq Maarif Komissarlığına çağırılıb. 23 noyabr 1929-cu il tarixdən Xalq Maarif Komissarlığının nəzdində olan Siyasi Maarif Şöbəsinə katib təyin olunub.

1930-cu illərdə savadsızlığa aleyhinə məktəbə müəllim təyin olunan Məmmədhüseyn Təhmasib az bir müddətdə bu məktəbdə işləyib. Onun Naxçıvanda əmək fəaliyyəti 10 iyun 1931-ci ilə qədər davam edib, buradan başlayan pedaqoji fəaliyyəti sonrakı əmək fəaliyyətinin təməli olub. Təhmasib Şıxmahmud məktəbinin sinif müəllimliyindən ozamankı Azərbaycan Dövlət Universitetinin baş müəllimi vəzifəsinədək yüksələrək müəllim adının şərəfini, məsuliyyətini qoruyub saxlayıb. 1951-ci ildən 1982-ci ilə kimi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda çalışıb. Azərbaycan folklorşünaslıq elminə mühüm töhfələr verən Məmmədhüseyn Təhmasib 5 oktyabr 1982-ci ildə Bakı şəhərində vəfat edib.

Şifahi xalq ədəbiyyatının tədqiqində son dərəcə böyük və gərgin əməyi olan alim dəyərli elmi-tədqiqat əsərləri yazaraq folklorumuzun təhlilində mühüm xidmətlər göstərib.

Aşıq yaradıcılığı haqqında fundamental araşdırmalar aparan Məmmədhüseyn Təhmasib Azərbaycan folklorunun dastan janrını dərindən tədqiq edib. 1938-1965-ci illər arasında 100-dən çox dastan toplamaqla bu sahədə faktik materiala dərindən bələd olan, istifadə etdiyi toplama, nəşr və arxiv materiallarını dünya nəzəri fikri səviyyəsində dəyərləndirməyi bacaran Məmmədhüseyn Təhmasib dastanların janr təsnifatını verməklə folklor elmimizdəki boşluqları doldurub. 1949-cu ildən ömrünün sonunadək "Koroğlu" dastanını müxtəlif yönlərdən təhlil edərək, dönə-dönə nəşr edilməsinə nail olub. Dastanın xalqımızın milli-mənəvi sərvəti olmasını, onun məhz Azərbaycan mühitində yaranıb formalaşmasını, sonralar başqa xalqların folkloruna da yayılmasını danılmaz faktlarla sübuta yetirib. Eyni zamanda o, digər dastanlarımızın da toplanılması sahəsində ciddi işlər görüb. Onun rəhbərliyi ilə şifahi xalq ədəbiyyatımızın bu qədim və zəngin janrının müxtəlif variantları yazıya alınaraq 5 cildlik "Azərbaycan dastanları" şəklində çap edilib.

Azərbaycan tarixinin, etnoqrafiyasının, toponimikasının, coğrafiyasının mükəmməl bilicisi Məmmədhüseyn Təhmasib ədəbi yaradıcılığa 1934-cü ildən başlayıb.

Böyük alimin yaradıcılığı milli kinodramaturgiyamızın inkişafından da yan keçməyib. Şifahi xalq ədəbiyyatının tədqiqində əhəmiyyətli xidmətləri olan folklorşünas alim müxtəlif janrlı tədqiqat əsərlərini nəşr etdirib.

Filologiya elmləri doktoru, professor Məmmədhüseyn Təhmasib həm də tərcüməçiliklə məşğul olub.

*Qeyd edək ki, görkəmli dramaturq və pedaqoq Məmmədhüseyn Təhmasibin ədəbiyyatımızın, mədəniyyətimizin inkişafındakı əvəzolunmaz xidmətləri unudulmamış, onun ədəbi və elmi irsinin öyrənilməsinə hər zaman qayğı ilə yanaşılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə muxtar respublikamızda tanınmış elm fədaisinin anadan olmasının 110 illiyinin geniş şəkildə qeyd olunması da alimin həyatı və elmi yaradıcılığına göstərilən böyük diqqətin nəticəsidir. Təhmasib yaradıcılığına hər zaman duyulan böyük ehtiyac və ədəbi sevgi bu böyük insanı xalqımızın qəlbində daim yaşadacaqdır.*

**Gülcamal TAHİROVA**

# Bayram büsatlı NAXÇIVAN



Foto: Əli XUDİYEV

## İfaçılıq müsabiqəsində fərqlənən kollektivlərin yekun konserti olub



***Naxçıvan Dövlət Uşaq Teatrında “Rəqs kollektivlərinin ifaçılıq müsabiqəsi” iştirakçılarının yekun konserti olub.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, mədəniyyətimizin bütün sahələri kimi, milli rəqslərimizin təbliği və yaşadılması istiqamətində muxtar respublikada müxtəlif mədəni tədbirlər həyata keçirilməkdədir. Peşəkar rəqs kollektivləri üçün milli geyim dəstlərinin alınması, onların maddi-texniki bazalarının yaxşılaşdırılması daim dövlətimizin diqqət mərkəzindədir.

Qeyd olunub ki, milli rəqslərimizin təbliği, istedadlı ifaçıların aşkara çıxarılması, onların yaradıcılıq potensialının düzgün istiqamətləndirilməsi, eləcə də 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilmiş Naxçıvan şəhərində təşkil olunacaq tədbirlərə hazırlıq məqsədilə keçirilən müsabiqənin əsasnaməsi, təşkilat komitəsinin və münsiflər heyətinin tərkibi təsdiq edilib. “Rəqs kollektivlərinin ifaçılıq müsabiqəsi”nə bu ilin noyabr ayında start verilib, yerlərdə müsabiqənin seçim turu keçirilib. Əsasnaməyə uyğun olaraq, müsabiqəyə qeyri-peşəkar rəqs kollektivləri qatılıblar. Seçim turunda 22 kollektiv iştirak edib, nəticələrə əsasən 11 kollektiv əsas turda iştirak hüququ qazanıb. Bu turda rəqs kollektivlərinin ifaları yallı və rəqs ifaçılığı olmaqla, iki nominasiya üzrə müvafiq meyarlar əsas götürülməklə on ballıq sistem üzrə qiymətləndirilib və mükafatlandırılıb.

Nazir müsabiqədə iştirak etmiş bütün kollektivlərə və onların rəhbərlərinə öz təşəkkürünü bildirib, qalib kollektivləri təbrik edib, onlara uğurlar arzulayıb.

Əvvəlcə nazir müsabiqədə ifaları ilə fərqlənən kollektivləri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı ilə təltif edib. Müsabiqədə yallı və rəqs nominasiyaları üzrə qalib olmuş kollektivlər diploma layiq görülüblər.

Sonda I yerin qalibləri elan olunaraq səhnəyə dəvət edilib. Rəqs üzrə Culfa Şəhər “Gülüstan” Mədəniyyət Evinin “Gülüstan” rəqs kollektivi, yallı üzrə Şərur Rayon Mədəniyyət Evinin “Şərur qönçələri” uşaq yallı ansamblı I yerlərin diplomuna layiq görülüblər.

Tədbirin bədii hissəsində qalib və fərqlənən kollektivlərin ifasında yallı və rəqslər ifa olunub.

**Əli RZAYEV**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi

### *2017/2018-ci tədris ili üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya, elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 dekabr 2017-ci il tarixli, 870 nömrəli sərəncamı ilə təsdiq olunmuş planına əsasən 2017/2018-ci tədris ili üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya, elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir. Elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağı bacaran və fəlsəfə doktoru (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olanlar qəbul edilirlər. Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan ali təhsil müəssisələrinin, elmi və elmi-pedaqoji kadrları sənəd verə bilər.

***Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qiyabi şöbəyə***

Astrofizika və ulduz astronomiyası (2108.01) – 2 yer
Yarımkeçiricilər fizikası (2220.01) – 1 yer
Qeyri-üzvi kimya (2303.01) – 1 yer
Zoologiya (2401.01) – 1 yer
Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları (2507.01) – 1 yer
Bitkiçilik (3103.07) – 1 yer
Etnoqrafiya və etnologiya (5102.01) – 1 yer
Müəssisələrin təşkili və idarə olunması (5311.01) – 1 yer
Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası (5408.01) – 1 yer
Azərbaycan dili (5706.01) – 1 yer
Sami dilləri (5713.01) – 1 yer

***Elmlər doktoru hazırlığı üzrə doktoranturaya qiyabi şöbəyə***

Botanika (2417.01) – 1 yer
Müqayisəli tarixi və müqayisəli tipoloji dilçilik (5714.01) – 1 yer

***Elmlər doktoru hazırlığı üzrə dissertanturaya, qiyabi şöbəyə***

Botanika (2417.01) – 1 yer
Vətən tarixi (5503.02) – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə dissertanturada təhsil müddəti 4 il, elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturada əyani təhsil müddəti 4 il, qiyabi isə 5 ildir. Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya, elmlər doktoru proqramı üzrə doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərliyinin adına);*
*- kadrların şəxsi qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- iş yerindən xasiyyətnamə;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı (və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktorluğuna sənəd verənlər üçün);*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- Fəlsəfə doktoru və ya elmlər namizədi elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktorluğuna sənəd verənlər üçün);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər 4 yanvar 2018-ci il tarixdən 22 yanvar 2018-ci il tarixədək aşağıdakı ünvanda qəbul ediləcək: AMEA Naxçıvan Bölməsinin əsas binası, 3-cü mərtəbə, Təhsil və kadrlar şöbəsi

*Əlavə məlumat üçün əlaqə telefonu: (036) 544 65 97*

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1055